# Lənkəranlıların qürur yeri





*Azərbaycan xalqının tarixinə qeyrət, hünər, şərəf səhifəsi kimi yazılan 44 günlük haqq savaşımızda Cənub mirvarisi Lənkəran 67 şəhid verib. Lənkəranlılar ölümsüzlüyə qovuşan oğulları ilə qürur duyur, onların adlarını həmişə əziz tutur, xatirələrini yad etməyi ən müqəddəs borc bilirlər.*

Odlardan, alovlardan keçərək şəhidlik zirvəsinə ucalan Afərin Müqəddəs oğlu Qulamzadənin, Ülfət Qabil oğlu Babazadənin anım günündə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının rəsmi şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri, ziyalılar, müharibə veteranları və şəhid ailə üzvləri hər iki qəhrəmanın uyuduğu torpağı ziyarət etdilər, böyük ehtiram əlaməti olaraq məzarlarına təzə güllər düzdülər. Çıxışlarda bir daha bildirildi ki, Vətənimizin Afərin, Ülfət kimi qeyrətli, mətin oğulları 30 ildən sonra xalqımızın əbədi, əzəli torpaqlarını öz canları bahasına işğaldan azad edərək bizlərə şanlı qələbə sevincini yaşatdılar.

1999-cu il iyulun 13-də Lənkəranın Mamusta kəndində anadan olan **Afərin Qulamzadə** İkinci Qarabağ müharibəsi başlanan gündən döyüş meydanında düşmənə qan uddurub. Qəhrəmanlığı, Vətən naminə fədakarlığı onunla çiyin-çiyinə vuruşan əsgərləri də qələbəyə doğru aparıb. Hər an torpaq uğrunda can qoyan və mərdliklə vuruşan Afərin Xocavənd istiqamətində gedən ölüm-dirim savaşında 21 yaşında həlak olub. Keçdiyi rəşadətli döyüş yolunun hər səhifəsi mərdliklə dolu olan Afərin Müqəddəs oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və digər medallara layiq görülüb. Milyonların ürəyində özünə əbədi məkan quran qəhrəmanın adına bulaq, büst, xatirə lövhəsi yaradılıb.

Lənkəran rayonunun Daşatük kəndində boya-başa çatan, varlığına düşmənə sonsuz nifrət hakim kəsilən **Ülfət Babazadə** Xüsusi Təyinatlı Qüvvələrin sırasında müharibədə iştirak edib. Kəlbəcər, Cəbrayıl, Füzuli Və Şuşa rayonlarının azadlığı uğrunda rəşadət nümunəsi göstərib. Döyüşdən-döyüşə bərkiyən Vətənin igid oğlu noyabrın 9-da ömrünün 21-ci ilində şəhid olub əbədiyyətə qovuşub. Şəhid Ülfət Babazadə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", Kəlbəcərin, Xocavəndin, Şuşanın azadlığına görə medalları ilə təltif edilib. İndi doğma kəndində uyuduğu yeri camaat müqəddəs sayır. Gənclər Ülfətin qısa, şərəfli ömür yolunu özlərinə əsl həyat məktəbi bilirlər.

**Z.ORUCOĞLU.**

Respublika.- 2024.- 5 dekabr (№ 268).- S.8.